

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 202 (23.614)

*21 noyabr 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciət edib. Ölkə başçısı Azərbaycan xalqını Ağdam rayonunun işğaldan azad olunması münasibətilə təbrik edərək bildirib ki, bu, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir, tarixi hadisədir. Vurğulanıb ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə son illər ərzində böyük quruculuq, abadlıq işləri aparılıb. Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınıb, rayona 93 min köçkün yerləşdirilib. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır. İndi Ağdam üçün yeni dövr başlayır.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir.

## Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binası istifadəyə verilib





Yaşı minilliklərə söykənən Duzdağ qədim tarixi və təbii gözəlliyi ilə seçilən Naxçıvanın rəmzidir. Eyni zamanda Naxçıvanın şəhər kimi formalaşması Duzdağ mədəniyyəti ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında tarixin sirli izləri qalıb”.***

Bu gün Naxçıvan Duzdağı iqtisadi və tarixi-mədəni əhəmiyyətini qorumaqla yanaşı, həm də müalicəvi xüsusiyyətləri ilə məşhurdur. Duzdağ Fizioterapiya Mərkəzi təbii müalicə mərkəzi kimi dünyada şöhrətə malikdir. Naxçıvan Muxtar Respublikasında aparılan böyük abadlıq və quruculuq işləri bu nadir səhiyyə ocağını da əhatə etmiş, müalicə turizminin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır.

Noyabrın 20-də Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Mərkəzin baş həkimi Heyran Qazıbəyova minnətdarlıq edərək demişdir: “Muxtar respublikada əhalinin sağlamlığına göstərilən diqqət və qayğının nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında bütün səhiyyə müəssisələri müasir standartlara uyğun qurulmuş, yeni tibbi avadanlıqlarla təchiz edilmişdir. Həyata keçirilən yenidənqurma işlərindən Duzdağ Fizioterapiya Mərkəzinə də pay düşmüşdür. Yaradılan şəraitin nəticəsidir ki, son illər müəssisəyə müraciət edənlərin sayı artmışdır. Yeni inzibati binanın istifadəyə verilməsi məsuliyyətimizi daha da artırır. Söz veririk ki, bundan sonra da işimizi göstərilən yüksək qayğıya uyğun quracaq, xəstələrin bu şəfa ocağında sağalmaları üçün üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirəcəyik”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: 1979-cu ildən fəaliyyət göstərən Duzdağ Fizioterapiya Mərkəzi bu gün 500-ə yaxın yataq yeri və 50 tibbi heyət ilə dünyanın bir çox ölkələrindən gələn xəstələrə xidmət göstərir. Müstəqillik dövründə Duzdağ Fizioterapiya Mərkəzi Naxçıvan Muxtar Respublikasının rəmzinə çevrilmişdir. Çünki



müxtəlif ölkələrdən gələn xəstələr mərkəzdə şəfa tapır, digər insanlara da buranı tövsiyə edirlər. Bu da mərkəzin daha da inkişafına, muxtar respublikanın tanınmasına, turizm potensialının genişlənməsinə imkan verir. Bu illər ərzində səhiyyə müəssisəsində yaxşı kollektiv də formalaşmışdır. Mərkəzdə bu sahə üzrə ixtisaslaşmış həkimlər fəaliyyət göstərir və onların yaxşı işlərinin nəticəsidir ki, müraciət edənlərin sayı ilbəil artır.

“Duzdağ Fizioterapiya Mərkəzi 40 illik yol keçmişdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, 2019-cu ildə müəssisənin yaradılmasının 40 illiyi qeyd olundu, kollektivin fəaliyyəti qiymətləndirildi. Bu gün istifadəyə verilən inzibati bina da 40 illik fəaliyyətə verilən töhfədir. Kollektivin üzərinə düşən vəzifə isə xəstələrə yüksək xidmət göstərməkdir. Təkcə ötən il mərkəzə 3 min 900-ə yaxın xəstə müraciət etmişdir. Onlardan 520-yə yaxını muxtar respublika sakinləri, digərləri isə Azərbaycanın müxtəlif bölgələrindən və xarici ölkələrdən gələnlər olmuşdur. Bu il dünyada baş verən epidemiya mərkəzin də işini müəyyən qədər zəiflətmişdir. Ona görə də post-epidemiya dövrünə hazırlaşmaq lazımdır. Əvvəllər xəstəxana ilə xəstə qəbulu bir yerdə olduğuna görə müəyyən çətinliklər yaranırdı. Artıq xəstə qəbulu və xəstəxana ayrı-ayrı binalarda yerləşir. Mərkəzdə nəyə ehtiyac varsa, onlar müəyyən olunmalı və bütün çatışmazlıqlar aradan qaldırılmalıdır. Mərkəz publik hüquqi şəxs olduğuna görə burada bütün işlər dəqiqliklə hesablanmalı, vəsaitdən qənaətlə istifadə olunmalı və fəaliyyət üçün lazım olan bütün səylər göstərilməlidir.

Ali Məclisin Sədri demişdir: Əvvəllər burada həm duz çıxarılırdı, həm də xəstəxana yerləşirdi. Lakin yaxın vaxtlarda yeni duz şaxtasının istifadəyə verilməsi bu problemi də aradan qaldıracaqdır. Bununla duz şaxtası ayrı bir əraziyə köçürüləcək, bura tamamilə xəstəxanaya aid olacaqdır. Ona görə də ərazi təmiz saxlanılmalı, qaydalara ciddi əməl olunmalıdır. Çünki xəstəni, ilk növbədə, ərazinin təmizliyi və göstərilən xidmət, sonra isə aldığı müalicənin nəticəsi maraqlandırır. İlin bütün fəsillərində şaxtada temperaturun eyni dərəcədə olması müalicənin səmərəli təşkilinə imkan verir. Bütün bunlar kompleks şəkildə həyata keçirilməlidir. Bir neçə ölkədə duz şaxtaları, eləcə də süni şəkildə yaradılan şaxtaların olmasına baxmayaraq, onlar Naxçıvan Duzdağı kimi təsir gücünə malik deyil. Ona görə də bu sərvəti qorumalı, tanıtmalı və yaşatmalıyıq. Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri maarifləndirmə işləri apararaq yerli xəstələri mərkəzə cəlb etməli, internet resurslarından istifadə etməklə mərkəz tanıdılmalı, sorğular düzgün və vaxtında cavablandırılmalı, mərkəzlə bağlı məlumatlar daim yenilənməlidir.

Ali Məclisin Sədri kollektivə təşəkkür etmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi, mərkəzin tibb bacısı Darçın Eyvazova minnətdarlıq edərək demişdir: “Yaşlı nəsil yaxşı xatırlayır ki, Duzdağ Fizioterapiya Mərkəzi vaxtilə hansı şəraitdə fəaliyyətə başlamışdır. Havada bir az külək olan kimi burada elektrik enerjisi kəsilir, saatlarla şam işığında çalışmalı olurduq. Qaranlıq tunellər yüksək səviyyədə müasirləşdirilib, işıqlandırılıb istifadəmizə verilib. Mərkəzə

*Ardı 2-ci səhifədə*

ölkəmizin, eləcə də dünyanın bir çox ölkələrindən xəstələr gəlir. Onlar dəniz səviyyəsindən yüzlərlə metr yüksəklikdə yerləşən bu dağın altında yaradılan şərait qarşısında heyrətlərini gizlədə bilmirlər. Bura müraciət edənlər həm sağlamlıqlarına qovuşur, həm də bu tarixi yerdən zövq alırlar. Bu gün istifadəyə verilən inzibati bina isə iş şəraitinin daha da yaxşılaşmasına xidmət edir”.

Sonra binaya baxış olmuşdur.

Bildirilmişdir ki, mərkəzin inzibati binasının tikintisinə 2019-cu ilin iyun ayında başlanılmışdır. Binanın birinci mərtəbəsində qeydiyyat, müayinə, təsərrüfat otaqları, bufet, ikinci mərtəbəsində isə baş həkim, tibb bacısı, 2 ordinator otağı, mühasibatlıq, təsərrüfat müdiri və texniki işçilər üçün otaqlar vardır. Yeraltı şöbənin girişində fizioterapiya kabinəsi və laboratoriya yerləşir. Fizioterapiya kabinəsi ultrasəs-elektroterapiya və yüksəktezlikli cərəyanla müalicə cihazları, solyuks və parafinəritmə qazanı ilə təchiz edilmişdir. Mərkəzə müraciət edən xəstələrin qeydiyyatının daha çevik və dəqiq aparılması üçün binaya internet xətti çəkilmişdir.

Dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinin yeraltı şöbəsi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdədir. Burada bütün fəsillərdə havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət 24-50 faiz arasında dəyişir. Mərkəzdə bronxial-astma, xroniki bronxit, bronxit, astma öncəsi vəziyyət, pollinoz, astmatik komponentli xroniki bronxit və allergik rinit xəstəlikləri müalicə olunur.

Mərkəzə gedən avtomobil yolunun 1600 metrinə asfalt örtük verilmiş, 1980 metr uzunluğunda beton kanal çəkilmiş, ərazi işıqlandırma və suvarma sistemləri ilə təchiz edilmiş, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

Yeni Azərbaycan Partiyası-28

# Müstəqil Azərbaycanın aparıcı siyasi qüvvəsi

*Çoxəsrlik tarixə, qədim və zəngin keçmişə malik Azərbaycan xalqı tarixboyu öz müstəqil dövlətini yaratmaq, onu qorumaq, inkişaf etdirmək amalı ilə daim mübarizə aparmışdır. Xalqın qəhrəmanlıq ənənələrini özündə əks etdirən bu mübarizə ağır sınaqlardan keçmişdir. Zəngin dövlətçilik ənənələrini özündə yaşadan xalqımız, nəhayət, ötən əsrin 90-cı illərində öz müstəqilliyinə yenidən qovuşdu. Azərbaycanın müstəqilliyini elan etməsi xalqımızın azadlıq və dövlət müstəqilliyi yolunda əldə etdiyi tarixi nailiyyət idi. Lakin müstəqilliyi əldə etmək nə qədər zəruri idisə, onu qoruyub saxlamaq, möhkəmləndirmək bundan daha vacib, çətin və şərəfli idi.*

Yaranmış mürəkkəb situasiya yenicə təşəkkül tapmaqda olan dövlətin inkişaf strategiyasını hazırlamağı, onun prioritet istiqamətlərini müəyyən etməyi tələb edirdi. Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan tarixinin mürəkkəb və təlatümlü bir dövrü idi. Ölkəni düşdüyü böhranlı vəziyyətdən güclü lider və mütəşəkkil siyasi qüvvə çıxara bilərdi. Azərbaycanda belə bir lider görkəmli şəxsiyyət və dövlət xadimi ulu öndər Heydər Əliyev idi. Onun ətrafında bütün ölkə ziyalılarının, vətənsevərlərin toplaşdığı partiya isə Yeni Azərbaycan Partiyası oldu. Beləliklə, 21 noyabr 1992-ci il şanlı tariximizin ən əlamətdar və unudulmaz təqvimlərindən birinə çevrildi. Məhz həmin gün Yeni Azərbaycan Partiyasının yarandığı gündür.

Dövlət müstəqilliyinin rəsmən elan olunduğu 1991-ci ilin 18 oktyabrından sonra Azərbaycan böyük fəlakətlə üzləşdi. Birbirini sürətlə əvəzləyən müvəqqəti iqtidarların səriştəsiz siyasəti dövlətə, xalqa qarşı edilən xəyanətlər Azərbaycanı nəinki yenicə qazandığı müstəqilliyini itirmək, hətta bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşdirmişdi. Həmin vaxtlarda Azərbaycanın bir sıra dövlətlərlə, o cümlədən qonşu ölkələrlə olan münasibətləri korlanmış və respublika beynəlxalq aləmdə təklənmişdi. Məhz belə bir faciəli vəziyyətdə xalqı təlaşdan çıxarmağa, onun sabaha inamını qaytarmağa qadir olan mütəşəkkil siyasi qüvvənin – partiyanın yaranması zamanın tələbi idi. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin ətrafında birləşdilər. Azərbaycanın bir qrup görkəmli ziyalısının imzası ilə Naxçıvana, ulu öndər Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə “91-lər”in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə dahi şəxsiyyətdən ölkənin bütün sağlam qüvvələrini birləşdirən bir siyasi təşkilata rəhbərlik etmək xahiş olunurdu. 1992-ci il oktyabrın 16-da həmin müraciət “Səs” qəzetində dərc olundu. Xalqımızın dahi oğlu, dövlət xadimi və böyük təcrübəyə malik ulu öndər o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi. Ümummilli lider Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə ozamankı hakimiyyətin maneələr yaratması səbəbindən partiyanı yaratmaq istəyən insanların bir hissəsi – 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular.

Azərbaycan bütün regionlardan seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda böyük şəxsiyyət Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Habelə partiyanın Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərində böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını tarixi zərurət kimi qiymətləndirərək demişdir: ***“Yeni Azərbaycan Partiyası ovaxtkı vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır. Bu partiyanı yaradarkən heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət, sizin hamınıza məlum vəziyyət bizi düşündürürdü. Ona görə də bir tərəfdən biz hesab edirdik ki, partiyanı yaradaraq, biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, ölkənin belə bir ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı”.***

Bu gün ölkəmizin əsas aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən ən mühüm amillərdən biri partiyanın təməl prinsipləridir. Bunlar müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalətdir.

Müstəqilliyimizin ilk illərində yaşanan böhran ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasəti nəticəsində aradan qaldırıldı. Xaos, anarxiya, özbaşınalığın sabitlik ilə əvəzlənməsi Azərbaycanın iqtisadi baxımdan qüdrətlənməsinə, siyasi mövqeyinin möhkəmlənməsinə səbəb oldu. ***“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”***, – deyən ümummilli lider Heydər Əliyev uğurlu iqtisadi islahatları ilə ölkəmizi tənəzzüldən tərəqqi yoluna çıxardı. 1994-cü il sentyabrın 20-də tarixə “Əsrin müqaviləsi” kimi daxil olan neft müqaviləsinin imzalanması ilə Azərbaycanın iqtisadi inkişafının təməli qoyuldu. Bu, öncə ölkəmizə olan inamın göstəricisi idi. Azərbaycan çox qısa zamanda böyük investisiyalar məkanına çevrildi. Təbii ki, iqtisadiyyatın inkişafı əhalinin sosial rifah halının yaxşılaşmasına da öz müsbət təsirini göstərdi. Xalqın gələcəyə inamı gündən-günə artdı. İlk gündən hüquqi, dünyəvi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın demokratik islahatlar sahəsində qazandığı uğurlar da hər birimizə bəllidir. Söz, mətbuat azadlığı təmin edildi, insan hüquqlarının qorunması sahəsində mühüm addımlar atıldı, ölkədə çoxpartiyalı sistem yaradıldı, seçki praktikası ildən-ilə daha da təkmilləşdirildi. Təbii ki, bütün bunlar Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına səbəb oldu. Ölkəmiz bir sıra nüfuzlu regional və beynəlxalq təşkilatların üzvüdür. Xarici siyasətində ikitərəfli əlaqələrin qurulmasına, inkişafına xüsusi önəm verən dövlətimizin beynəlxalq təşkilatlarla münasibəti də yüksək səviyyədədir. Bütün bu uğurların əldə olunmasında Yeni Azərbaycan Partiyasının rolu böyükdür. Yeni Azərbaycan Partiyası qələbələr, uğurlar partiyasıdır. Yeni Azərbaycan Partiyası keçdiyi tarixi yol nəticəsində güclü siyasi təşkilata çevrilib.

Azərbaycan xalqının Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşməsi, həyata keçirilən siyasəti dəstəkləməsi, gələcəyə böyük inamla addımlaması Yeni Azərbaycan Partiyasına olan inam və məhəbbəti gücləndirib. Yeni Azərbaycan Partiyasının Sədri, Prezident cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin yaratdığı inkişaf konsepsiyasının dayaqları üzərində inkişaf edərək yeni dövrün reallıqlarına uyğun çevik, özünəməxsus, modern bir idarəetmə platforması formalaşdırıb. Azərbaycanın siyasi lideri idarəçilik fəlsəfəsinin yeni komponentlərini yaratmaqla dövlət aparatı sistemində ən mükəmməl və demokratik meyarlara əsaslanan unikal bir idarəetmə formulu müəyyən edib. Bu, Azərbaycanın milli dövlətçiliyinin möhkəmlənməsini təmin etməklə bərabər, bölgə ölkələrinin geniş əməkdaşlıq vektorlarının mühüm prinsiplərini özündə ehtiva edir. Region dövlətlərinin liderlərinin öyrənmək istədiyi bu formula demokratiyanın, milli birliyin, tolerantlığın, sivilizasiyalararası geniş əməkdaşlığın, multikulturalizmin dərinləşməsinə töhfəverici faktor qismində çıxış edir, regionlararası səmimi təmas nöqtələrinin trayektoriyalarını müəyyən edir. Odur ki, cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət öz mühüm nəticələrini göstərməkdədir.

Yüz minlərlə yeni iş yerlərinin açılması, əməkhaqlarının, təqaüd və müavinətlərin dəfələrlə artırılması, ölkəmizdə ildən-ilə geniş vüsət alan quruculuq-abadlıq işləri və infrastruktur layihələri hər bir vətəndaşa layiqli həyat təmin etmək üçün əlverişli şərait yaradıb. Azərbaycan bütün sosial-iqtisadi göstəricilərə görə regionun lider dövlətinə çevrilib.

Yeni Azərbaycan Partiyasının Sədri, Prezident cənab İlham Əliyev Azərbaycanda milli ideya platformasını ən dərin təməllər üzərində inkişaf etdirərək ölkənin sosial-iqtisadi, siyasi-hüquqi proqressiyasının, yüksək xətt üzrə irəliləyişini sürətləndirib. Onun ən yeni tarixin qlobal təsirlər və regional proseslər məcrasında mahir və peşəkar siyasi lider kimi çevik qərarları ölkəmizin milli ideoloji bazasını gücləndirib.

Ulu öndər həmişə Naxçıvanın inkişaf etməsini, abadlaşmasını istəyirdi. Dahi şəxsiyyət deyirdi: ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”.***

Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində analoqu olmayan uğurların qazanılmasında bir başlıca səbəb vardır: o da ulu öndərimizin yoluna sədaqət və bu yolun davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikasına 25 ildir, uğurla rəhbərlik edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun muxtar respublikada həyata keçirdiyi böyük quruculuq siyasəti, yaratdığı ictimai-siyasi sabitlik, xalqa olan bağlılığı dövlətə və Heydər Əliyev ideyalarına olan sədaqətin bariz nümunəsidir. Muxtar respublikamızda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan nəticələr seçilən düzgün siyasi xəttin bəhrəsi olmaqla yanaşı, həm də rəhbər faktorunun real siyasi fəaliyyətdə təsdiqidir. Bu siyasətin mühüm nəticəsi olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvləri, siyasi cəhətdən fəal gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Partiyanın yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 1118 nəfəri öz sıralarında birləşdirirdisə, bu gün 57 mindən çox partiya üzvünü öz sıralarında birləşdirmişdir ki, bu da muxtar respublikada siyasi aktiv əhalinin 18 faizini təşkil edir. Üzvlərdən 41 faizi gənc, 44 faizi isə qadındır. Partiya üzvlərindən 178 nəfəri müxtəlif elmlər üzrə fəlsəfə doktoru, 27 nəfəri isə elmlər doktorudur. Partiya üzvlərindən 3 nəfəri Azərbaycan Respublikasının Milli Məclisində, 41 nəfəri Naxçıvan Muxtar Respublikası Ali Məclisində, 1114 nəfəri isə bələdiyyələrdə təmsil olunurlar. Partiyanın rayon (şəhər) təşkilatlarında 502 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Ötən illər ərzində muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb, nəhəng istehsal müəssisələri, çoxsaylı yaşayış binaları, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülüb.

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın davamlı xarakter daşıması, milli dövlətçiliyin qorunması Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təməl prinsiplərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri partiyanın muxtar respublika təşkilatının gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirərək demişdir: ***“Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. “Sağlam cəmiyyət – güclü dövlət” sistemi üzrə doğma Azərbaycanımızın inkişafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimiz – bizim vəzifəmizdir. Vəzifə – partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir”.***

*Bu gün əminliklə demək olar ki, yaradıcısı ümummilli lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Heydər Əliyevin ideya və arzuları yaşayır. Yeni Azərbaycan Partiyası bu günün və gələcəyin siyasi partiyası kimi ölkəmizin inkişafına güclü təsirini bundan sonra da davam etdirəcəkdir.*

***Yeni Azərbaycan Partiyası Naxçıvan***
***Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

*“2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində idman klubları yaradılıb. Noyabrın 20-də Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində idman klublarının təqdimatı keçirilib.*

## Ümumtəhsil müəssisələrində idman klubları yaradılıb



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində ümumtəhsil müəssisələrində 33 futbol, 16 minifutbol idman meydançası, 196 idman zalı və açıq idman qurğuları, şahmat sinifləri şagird və müəllimlərin ixtiyarına verilib. Şahmat məktəbləri 67 kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunub, şahmat fənnini tədris edən müəllimlərin sertifikasiyası aparılıb, 505 müəllim sertifikatla təmin edilib.

Vurğulanıb ki, hazırda muxtar respublika ümumtəhsil məktəblərində 364 fiziki tərbiyə müəllimi fəaliyyət göstərir. Onların 35-i müəllimlərin işə qəbulu müsabiqələrində ən yüksək nəticə göstərən gənc kadrdır. Təhsil müəssisələrində idman infrastrukturunun yaxşılaşdırılmasının nəticəsidir ki, bədən tərbiyəsi və idman ixtisaslarına maraq artıb, təkcə ötən tədris ilində, ümumilikdə, 36 məzun ali məktəblərin idman ixtisaslarına qəbul olunub.

Bildirilib ki, fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsil işçilərinin üzərinə qoyduğu vəzifələrin icrası məqsədilə 2020-ci ildə muxtar respublikamızda fəaliyyət göstərən federasiyalar ilə birgə müxtəlif yarışlar keçirilib, Uşaq-Gənclər İdman məktəblərinə 195 qrup üzrə 2740 dərnək üzvü qəbul edilib ki, onların da 2164-ü oğlan, 576-sı qızdır.

Qeyd edilib ki, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, eləcə də istedadlı idmançıların üzə çıxarılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı” təsdiq olunub. Proqramın icrası məqsədilə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində kadr potensialı və mövcud şərait nəzərə alınmaqla idman klubları yaradılıb.

Təhsil naziri muxtar respublikada təhsilin inkişafına və şagirdlərin sağlamlıqlarının qorunmasına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, adıçəkilən proqramda Naxçıvan idmanının inkişafına dair konkret tapşırıqlar qoyulub. Bu tapşırıqların icrası üçün nazirlik aidiyyəti qurumlarla birgə uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılması məqsədilə bir çox ənənəvi və yeni idman tədbirləri həyata keçirir.

Culfa Rayon Təhsil Şöbəsinin müdiri Mehdixan Əliyev, Sədərək Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru Nizami Qədimov, Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin fiziki tərbiyə müəllimi Səyyarə Şahgəldiyeva çıxış edərək təhsil müəssisələrində idman klublarının yaradılmasının şagirdlərin fiziki cəhətdən sağlam böyümələrində, asudə vaxtlarının səmərəli təşkilində, idmanın kütləviliyinin artırılmasında, istedadlı şagirdlərin üzə çıxarılmasında mühüm rol oynayacağını bildiriblər.

Sonra Təhsil Nazirliyi Aparatının rəhbəri Rəşad Əlizadə yaradılan idman klubları haqqında məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində – Naxçıvan şəhəri üzrə 28, Şərur rayonu üzrə 30, Ordubad rayonu üzrə 26, Babək rayonu üzrə 23, Culfa rayonu üzrə 23, Kəngərli rayonu üzrə 21, Şahbuz rayonu üzrə 19, Sədərək rayonu üzrə 15 olmaqla, 118 məktəbdə 12 idman növü üzrə 185 idman klubu yaradılır. Həmin idman klublarından 29-u atletika, 32-si voleybol, 31-i basketbol, 24-ü futbol, 15-i sərbəst güləş, 8-i boks, 7-si karate-do, 17-si stolüstü tennis, 4-ü cüdo, 14-ü minifutbol, 2-si ağır atletika, 2-si isə gimnastikadır.

Tədbirin sonunda yaradılan təhsil idman klublarının tədbirlər planı müzakirə olunub, idman klublarının fəaliyyətinin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlar verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Kənd təsərrüfatı sahəsində maarifləndirmə tədbirləri davam etdirilib

Oktyabr ayı ərzində kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar nazirliyin mütəxəssisləri tərəfindən torpaq mülkiyyətçilərinin və ailə təsərrüfatı başçılarının iştirakı ilə müşavirələr, tarla seminarları və maarifləndirmə tədbirləri keçirilmişdir. Müşavirələrdə iştirakçılara payız əkinlərinin optimal müddətdə aparılması, şumdan qabaq mineral və üzvi gübrələrin torpağa verilməsi, keyfiyyətli toxum tədarükü və toxumun dərmanlanmasının, əkinlərin şırım üsulu ilə aparılmasının əhəmiyyəti haqqında məlumat verilib. Şərur rayonunda torpaqların şorluluq dərəcəsi, eroziyası ilə bağlı monitorinqlər və planaalma işləri aparılıb.

Hesabat ayında payızlıq taxıl əkinlərinin aparılmasında həyata keçirilməsi vacib olan tədbirlərlə əlaqədar müraciət edən torpaq mülkiyyətçilərinin müraciətlərinə baxılmış, nazirliyin mütəxəssisləri tərəfindən onlara lazımi tövsiyələr verilmişdir. Həmçinin muxtar respublika ərazisində qarğıdalı biçininin vaxtında aparılması və məhsulun itkisiz toplanması üçün mexanizator və texnika mülkiyyətçiləri ilə fərdi qaydada söhbətlər aparılmış, onlara məsləhətlər verilmişdir. Payızlıq taxıl əkinlərinin optimal müddətdə başa çatdırılması, əkin zamanı baş verə biləcək nasazlıqların tez bir zamanda aradan qaldırılması üçün rayonlarda payızlıq əkinlərdə iştirak edəcək texnikaların vəziyyəti daim nəzarətdə saxlanılaraq texnika sahibkarları ilə fərdi qaydada söhbətlər aparılmışdır.

Ötən ay “Araz” Elm-İstehsalat Birliyinin Elmi şurasının iclası keçirilmiş, tədqiqat işləri müzakirə olunmuşdur. Birliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizlər şöbəsinin əməkdaşları Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən təqdim olunan və Şərur rayonunun 10 kəndindən götürülmüş 39 torpaq nümunəsində, həmçinin İqtisadiyyat Nazirliyinin İstehlak Mallarının Ekspertizası Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2 çeşiddə, 6 halda gətirilmiş fosfor və azot gübrələrinin analizlərini aparmış, nəticələri haqqında məlumat verilmişdir. Birliyin əməkdaşları tərəfindən hazırlanmış “Naxçıvan Muxtar Respublikasının boz torpaqları şəraitində tərəvəz toxumunun böyümə və inkişaf xüsusiyyətləri” adlı elmi məqalə çap olunmaq üçün Rusiya Federasiyası Altay Dövlət Aqrar Universitetinə göndərilmişdir.

Toxumçuluq və bitkilərin mühafizəsi idarəsi tərəfindən 45 torpaq mülkiyyətçisi və ailə təsərrüfatı sahiblərinin gətirdikləri toxum nümunələri laboratoriya şəraitində aniliz edilərək onlara nəticələri haqqında məlumat verilmişdir.

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı heyvandarlarla fərdi qaydada maarifləndirici görüşlər keçirilmiş, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalandırma tədbirlərinin davam etdirilməsi və üstünlükləri haqqında məlumat verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## 2020-ci ilin ötən dövrü ərzində 8 müdafiə mövqeyində yeni əsgəri-məişət kompleksi tikilib



*Naxçıvan Qarnizonu Qoşunlarında hərbi təyinatlı obyektlərin tikintisi, şəxsi heyətin xidməti və mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri 2020-ci ilin ötən dövrü ərzində də uğurla davam etdirilib. Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, hərbi şəhərciklərində yeni binalar inşa olunub, istirahət parkları salınıb, hərbi obyektlərdə əsaslı və cari təmir işləri aparılıb.*

Hər tərəfdən dağ silsilələri ilə əhatə olunan Naxçıvan Muxtar Respublikasının qışı soyuq və qarlı keçən yüksək dağlıq zonalarında etibarlı müdafiə sistemi qurulub. Çətin dağlıq şəraitdə yerləşən müdafiə mövqelərimizdə şəxsi heyətin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Bütün bunların nəticəsidir ki, uca zirvələrin hakimi olan hərbi qulluqçularımız Vətənimizin etibarlı müdafiəsini təmin edirlər. Hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində görülən işlərin davamı olaraq 2020-ci ilin ötən dövrü ərzində 8 müdafiə mövqeyində yeni əsgəri-məişət kompleksi tikilib. Müasir kazarmalarda yaşayan əsgərlərimiz mənəvi-psixoloji ruh yüksəkliyi və vətənpərvərlik hissləri ilə xidmət edirlər.





Əsgər Gündüz Mehdizadənin dediklərindən: “3000 metrdən çox yüksəklikdə əsgər yoldaşlarımla birgə ön xətdə xidmət aparırıq. Əsgər yoldaşlarımla qardaş kimiyik. Burada rahat şəkildə xidmət aparmağımız üçün hər cür əlverişli şərait yaradılmışdır və biz ayıq-sayıq şəkildə döyüş növbətçiliyini yerinə yetiririk. Azərbaycan Respublikasına xidmət edirəm!”

Əlahiddə Ümumqoşun Ordunun möhkəm müdafiə potensialına malik birinci eşelon bölmələrində inşa olunan binalar keyfiyyətli mebel dəstləri, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Əsgər və zabitlərin rahat şəkildə istirahəti, qidalanması və nümunəvi xidməti üçün tikilən hərbi oyektlərdə qış tədarükü görülərək isti geyim, yanacaq, içməli su və ərzaq təminatı yaradılıb.

Yaradılan şəraitdən razılıq edən əsgər Cabbar Cabbarlının fikirləri belə oldu: “Gördüyünüz kimi, bizim üçün burada müasir tələblərə cavab verən kazarmada hərbi xidmətimizin təşkili üçün hər cür şərait yaradılmışdır. Biz fəxr edirik ki, Vətən müharibəsində qalib gəlmiş müzəffər Azərbaycan Ordusunun əsgərləriyik”.

Müzəffər Ordumuzun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı ilə qazandığı qələbə hər birimizi qürurlandırdığı kimi əsgərlərimizdə də böyük ruh yüksəkliyi yaradıb. Dövlət-xalq-ordu birliyindən güc alaraq xidmətini davam etdirən əsgərlərimiz qazanılan qələbənin sevincini yaşayırlar.

Əsgər Seymur Fərhadli uca zirvələrdə xidmət aparması ilə qürur duyduğunu bildirdi: “Müzəffər Ordumuzun apardığı uğurlu əməliyyatlar mən və əsgər yoldaşlarımın döyüş əzmini daha da yüksəltmişdir. Bütün Azərbaycan torpaqlarında Azərbaycan bayrağı dalğalanacaq. Qarabağ Azərbaycandır!”

Əsgər Cavidan Şükürzadə deyir ki, ayıq-sayıq döyüş növbətçiliyi aparmağımız üçün hər cür şəraitimiz var. Biz burada, sadəcə, əsgər yoldaşı deyil, bir ailəyik, qardaşıq. Qarşımızdakı düşmənin hər hansı bir təxribatı olarsa, onlar qarşılarında bizim kimi cəsur, mərd əsgərlər görəcəklər. Necə ki Dağlıq Qarabağda gedən döyüşlərdə bizim digər əsgər yoldaşlarımızın cavablarını gördülər. Düşmənin hər hansı bir təxribatına layiqli cavab verməyə hazırıq. Biz fəxr edirik ki, Azərbaycan əsgəriyik. Qarabağ Azərbaycandır!

Yaradılan nümunəvi xidmət şəraitinə görə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti ümummilli lider Heydər Əliyev ideyalarına sadiq qalaraq Vətənimizin müdafiəsi və ərazi bütövlüyümüzün təmin olunması yolunda tarixi zəfərlər qazanır.

**Nəriman NƏCƏFOV**

## İsti qış geyimləri hərbi hissəyə təhvil verilib



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək bildirib ki, avqustun 12-də Naxçıvan Muxtar Respublikasında 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi ilə bağlı verilmiş tapşırığa uyğun olaraq bu gün məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 2100 yun corab, 1200 yun boyunluq və 920 yun şərf əsgərlərimizə hədiyyə edilir.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Ramin Dadaşov çıxış edərək vurğulayıb ki, muxtar respublikada ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlət qayğısından və xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi də növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür. Tədbirdə hərbi qulluqçular göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ötən ay da məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 2000 yun corab və 1700 yun boyunluq əsgərlərimizə təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



# Vətənpərvərlik və milli-mənəvi şüurun təbliği

*Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. İctimai səciyyə daşıyan vətənpərvərlik tərbiyəsi gənclərin vətəndaş kimi formalaşmasında hər zaman öz gücünü göstərib. Gənclərin bu ruhda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı mühüm əhəmiyyət daşıyır:* ***"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

Gəncləri milli vətənpərvərlik ruhunda tərbiyə etmək çətin olduğu qədər, məsuliyyətli işdir. Ümumiyyətlə, vətənpərvərlik tərbiyəsi Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Vətənpərvərlik ruhunun əsas daşıyıcısı və aparıcı qüvvəsi ölkənin gəncləridir. Bu baxımdan, məktəblərimizdə gənclərlə iş sahəsində görülən tədbirlər onların vətənpərvərlik ruhunun daha da inkişaf etməsinə təkan verir.

Bu gün Naxçıvan Muxtar Respublikasındakı ümumtəhsil müəssisələrində hərbi-vətənpərvərlik tərbiyəsi planlı şəkildə qurulur və səmərəli yerinə yetirilir. Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədris məqsədi məktəblilərin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsindən, orduya gənc çağırışçıların hazırlanmasının təmin olunmasından ibarətdir. Bu sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Bəs vətənpərvərlik nədir və ya necə vətənpərvər ola bilərik? Adətən, bunu Vətənə məhəbbət, öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıq kimi də qiymətləndirirlər. Bağlılıq mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli qürur kimi də xarakterizə olunur. Uzun illər vətənpərvərlik anlayışı müxtəlif mənalarda işlənib. XVIII əsrdə Amerika və Fransa burjuaziya inqilabları zamanı bu, inqilabi ideologiya ilə əlaqələndirilmiş və "millət" anlayışı ilə eyniləşdirilmişdir. Millətin milli mənlik şüurunun formalaşması, mənəvi-siyasi cəhətdən yetişməsi həm də onun vətənpərvərlik səviyyəsi ilə müəyyən edilir. Vətənpərvərlik, milli-mənəvi şüurun təbliği və aşılanması bir tərəfdən ictimai səciyyə daşıyaraq şagirdlərin, tələbələrin vətəndaş kimi formalaşmasında, öz Vətənini, ləyaqətini qorumaqda mənəvi təsir gücünə malikdir. Başqa bir yöndən vətənpərvərlik gənclərdə vicdan, ləyaqət, ədalət hisslərini tərbiyə edir, şəxsi mənafe, eqoizmdən uzaqlaşdıraraq millət, xalq sevgisini oyadır. Bu isə, öz növbəsində, dövlətin demokratik prinsiplərlə idarə olunmasına, xalqın mənafeyinə xidmət edilməsinə zəmin yaradır. Vətənpərvərlik həm də fəaliyyət sahəsindən asılı olmayaraq, mənəvi-siyasi məsuliyyəti dərk etmək və layiqincə daşımaqdır.

Diyarımızın ümumtəhsil məktəblərində təbliğ olunan vətənpərvərlik ideyaları şagirdlərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik kimi ən ülvi hisslər yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışlarının birində qeyd etmişdir: ***"Bizim təhsilimizin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq vətənpərvər gənclər yetişdirməkdir".*** Bəli, bu gün məktəblərimizdə təkcə bilik yox, eyni zamanda gənclərə vətənpərvərlik hissi aşılanır. Ali Məclis Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq şagirdlərdə vətənpərvərlik ruhunu yüksəltmək üçün muzeylərlə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılır, qədim və zəngin tarixi, mədəniyyəti özündə yaşadan yurd yerlərimizə, tarixi abidələrimizə ekskursiyalar təşkil olunur.

Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisinin yüksək səviyyədə təşkil edilməsi üçün ümumtəhsil məktəblərində hərbi kabinələr dövlət atributlarımız, milli qəhrəmanların portretləri, milli ordumuzda istifadə olunan silah və hərbi texnikanın sökülüb-yığılmasını və onlardan istifadə qaydalarını əks etdirən stend və guşələrlə təmin edilib. Bu fənnin tədris olunmasının əsas məqsədi gəncləri ölkənin müdafiəsinə hazırlamaqdan, Azərbaycan Respublikası Konstitusiyasından və qanunlarından, Silahlı Qüvvələrin nizamnamələrinin tələblərindən irəli gələn vəzifələri öyrənməkdən, gələcəyin əsgərləri və peşəkar zabitləri olacaq şagirdlərin hərb sahəsi üzrə yüksək bilik və bacarıqlara yiyələnməsindən, onlarda vətənpərvərlik ruhunun gücləndirilməsindən ibarətdir. Məktəblərimizdə, eyni zamanda ibtidai hərbi hazırlıq dərslərinin tədrisi onların vətənpərvər ruhda böyüməsinə öz təsirini göstərir. Bütün bu kimi işlər, nəticə etibarilə, gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında mühüm rol oynayır. Orduya çağırılan gənclərin orta məktəbdə oxuduqları dövrdə müəyyən hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində vacib rol oynayır.

Ümumtəhsil müəssisələrində müharibə iştirakçıları ilə görüşlər keçirilir, məktəblilərə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının həyatı və qəhrəmanlıqları barədə ətraflı məlumatlar verilir. Bunlarla yanaşı, məktəblilərin vətənpərvərlik tərbiyəsinin səmərəliliyini artırmaq istiqamətində də müəyyən zəruri tədbirlər təşkil olunur. Belə ki, ümumtəhsil müəssisələrində şagirdlərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, şagirdlərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması məqsədilə müəyyən mövzulara həsr olunmuş inşa yazı, şeir müsabiqələri keçirilir.

Məktəblər arasında hərbi idman oyunlarının keçirilməsi də yeniyetmələrə vətənpərvərlik hisslərinin aşılanmasında böyük rol oynayır. "Sərhəd", "Şahinlər", "Vətənin müdafiəsinə hazıram", "Hədəf", "Vətən naminə" kimi oyunların keçirilməsində məqsəd şagirdlərə cəsarətliliyi, çevikliyi, mübarizliyi, qələbə çalmaq uğrunda iradə möhkəmliyinin təmin olunmasını öyrətməkdir. Bu yarışların son zamanlar kütləviliyinin artması, həmçinin oğlanlarla yanaşı, qızların da iştirakı diqqətdə saxlanılır.

Vacib məqamlardan biri kimi dərs ili ərəfəsində məktəblilərin əsgər həyatı ilə yaxından tanış olması təmin etmək üçün onların daha sistemli şəkildə hərbi hissələrə aparılması, görüşlərin təşkilidir. Bu kimi görüşlərdə də əsas məqsəd hərbi hissələrdəki müasir silah və hərbi texnikalarla şagirdləri tanış etmək, onlardan istifadə qaydaları barədə məktəblilərə ətraflı məlumatlar vermək və əsgərlik xidməti barədə təsəvvürlərini genişləndirməkdən ibarətdir. Şagirdlərin hərbi-vətənpərvərlik hisslərinin artırılmasında canlı ünsiyyət də mühüm rol oynayır. Onlar Heydər Əliyev adına Hərbi Liseydə, Döyüş Şöhrəti və Dövlət Bayrağı muzeylərində, hərbi hissələrdə olurlar. Bütün bunlar yeniyetmələrin formalaşmasında, Vətənə bağlılığının artırılmasında və torpağın müdafiəsinə dayanmaq kimi hisslərinin inkişaf etdirilməsində mühüm rol oynayır.

Vətən uğrunda böyük fədailik göstərərək şəhidlik kimi ali, müqəddəs zirvəyə yüksələn gənclərimizin arasında Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə yanaşı, Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarında hərbi-nəzəri biliklərə və praktik vərdişlərə yiyələnərək peşəkar hərbçi kimi yetişən eloğlularımız da vardır. Məlum olduğu kimi, Ermənistan silahlı qüvvələrinin uzun illərdir, işğal altında saxladıqları Azərbaycan torpaqlarında, qoşunların təmas xəttində ölkəmizə qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlaması xalqımızın Vətən uğrunda mübarizəyə qalxmasını zəruri etdi. Müzəffər Ordumuzun düşmənin təcavüzünə qəhrəmanlıqla cavab verməsi, işğal altında olan torpaqlarımızı azad etməsi qələbə əzminin nümayişi oldu. Bu günlərdə "Naxçıvan" Əlahiddə Ümumqoşun Ordunun İkinci Qarabağ müharibəsində göstərdiyi şücaət, ərazi bütövlüyümüz uğrunda hərbçilərimizin nümayiş etdirdiyi əzmkarlıq, vətəndaşlarımızın Azərbaycan dövlətinə və onun ordusuna dəstək aksiyaları keçirmələri muxtar diyarımızda vətənpərvərlik və milli şüurun təbliğinə nə qədər önəm verildiyini bir daha göstərmiş oldu.

Ölkə başçısı xalqa müraciətində də naxçıvanlıların İkinci Qarabağ müharibəsində fəal iştirakını xüsusi qeyd edərək demişdir: ***"...Əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Göründüyü kimi, vətənpərvərlik tərbiyəsi Vətənin təhlükəsizliyi, müdafiəsi üçün olduqca vacib məqamdır. Bu baxımdan təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir.

**Ceyhun MƏMMƏDOV**

## Muxtar respublikada fövqəladə hallara hazırlıq işləri davam etdirilir

Oktyabr ayında qəza və hadisələrin baş verməməsi üçün 14 obyektdə texniki təhlükəsizliyə əməl olunması yoxlanılmış, 6 müəssisədə aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istismara veriləcək şaxtada aparılan işlərdə texniki təhlükəsizliyin vəziyyəti, habelə Sədərək gömrük-keçid məntəqəsində tikilən tuneldə elektrik və şəbəkə kabellərinin çəkilməsi, radiasiya aşkar edən portal monitorların quraşdırılması zamanı texniki və yanğın təhlükəsizliyi tələblərinin həyata keçirilməsi vaxtaşırı yoxlanılmışdır. 7 təhlükə potensiallı obyektdə texniki təhlükəsizlik tələblərinə əməl olunmasına, Naxçıvan şəhəri 49-cu məhəllədə inşa edilən yaşayış binalarında istismar edilən qülləli kranın və 14 sərnişin liftinin təhlükəsiz istismar edilməsinə nəzarət olunmuşdur. 4 müəssisədə 10 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı verilmiş, 10 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilərək dövlət nömrə nişanı və texniki pasportla təmin edilmiş, 42 texnoloji nəqliyyat vasitəsi 2020-ci il üçün texniki baxışdan keçirilmişdir. 8 təhlükə potensiallı obyektdə mühafizə işinin təşkili yoxlanılmış, 11 müəssisədə 213 nəfər işçinin iştirakı ilə maarifləndirmə işi aparılmışdır.

Fövqəladə hallarda fəaliyyəti zəruri olan 13 xəstəxanada, 10 rabitə, 26 energetika, 4 qaz təchizatı və 8 sənaye obyektində fövqəladə hallara hazırlığın vəziyyəti təkrar yoxlanılmış, 14 obyektdə aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər görülmüşdür. 24 ümumtəhsil məktəbində mülki müdafiə üzrə sənədlər toplusunun icra vəziyyəti yoxlanılmış, 13 obyektdə mülki müdafiə sahəsində sənədlərin işlənilməsinə metodik köməklik göstərilmişdir.

Muxtar respublikada pandemiyaya qarşı dezinfeksiya tədbirləri davam etdirilərək şəhər və rayonlarda küçələr, prospektlər, döngələr və səkilər daxil olmaqla, ümumilikdə, 4 milyon 674 min kvadratmetr sahə, 207 müxtəlif təyinatlı obyektin ərazisi, 92 yaşayış binasının girişi və ətrafı, 30 yaşayış binasının zirzəmisi, uşaq əyləncə yerləri, 2 yeraltı dayanacaq, 2 yerüstü və 1 yeraltı keçid, 4 hərbi hissənin ərazisi, 2 hərbi şəhərcik, 13 mərasim evi, 12 məscid, 15 muzey və dini ziyarət yerləri, istirahət parkları, qəbiristanlıqlar, 16 inzibati ərazi dairəsi üzrə nümayəndəliyin həyəti, 17 ticarət və xidmət mərkəzinin ətrafı dezinfeksiya olunmuşdur. Dezinfeksiya tədbirlərinə Fövqəladə Hallar Nazirliyinin 11 yanğın avtomobili, Dövlət Baytarlıq Xidmətinin 7 dezinfeksiya avtomobili və ümumilikdə, 85 nəfər şəxsi heyət cəlb olunmuşdur.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 103 obyektdə diqqətli, 198 obyektdə nəzəri, 6 obyektdə məqsədli yanğın-texniki müayinə aparılmış, payız-qış mövsümünə hazırlıqla bağlı 772 qazanxanada texniki və yanğın təhlükəsizliyi tədbirlərinə əməl olunmasına nəzarət edilmişdir. Kənd yaşayış məntəqələrində 3904 yaşayış evinə baxış keçirilmiş, standarta uyğun olmayan 36 elektrik xətti, 133 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 6 suqızdırıcının və 119 tezqatlanan tüstü borusunun istismarı dayandırılmışdır.

Aid dövlət orqanları ilə birlikdə standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının istismarına yol verilməməsi üçün ticarət obyektlərinin sahibkarları ilə görüşlər keçirilmiş və onlara bildirişlər təqdim edilmişdir. Daşınmaz əmlakın icbari sığortası ilə bağlı sahibkarlıq subyektlərində izahat işləri aparılaraq 57 obyektlə icbari sığorta müqaviləsinin bağlanılmasına əməli köməklik göstərilmişdir.

Peşə məktəblərində 267 nəfərin qazanxana maşinisti peşə ixtisası kurslarına cəlb olunması üçün maarifləndirmə işi aparılmış, bu müdavimlərlə elektrik avadanlıqları, yanğın təhlükəsizliyinə nəzarət və əməyin mühafizəsi fənləri üzrə təyin olunmuş dərslərin keçilməsi təmin edilmişdir.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikintisi başa çatmış 4 obyektin istismara hazırlığı yoxlanılaraq istismara hazırlıq aktı verilmiş, mühəndis-geoloji, beton və sement laboratoriyasında yeni tikilən obyektlərin ərazisindən qrunt nümunələri götürülərək onların fiziki-mexaniki xüsusiyyətləri araşdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 872